


# ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİNİN PROFİLAKTİKASINDA PASİYENTLƏ EFFEKTİV QARŞILIQLI ÜNSİYYƏT PRİNSİPLƏRİ

- Pasiyent ilə ünsiyyət üçün kifayət qədər vaxt ayırın – hətta bir neçə dəqiqə artıq vaxtla daha mükəmməl nəticəyə nail olmaq olar.
- Xəstəlik və onun səbəbləri barədə pasiyentin öz rəyini öyrənin.
- Pasiyentin narahatlıq, qorxu və təşviş hislərini ifadə etməsini, öz davranış tərzinin dəyişməsində motivasiyanı və müvəffəqiyyət şansını qiymətləndirməsini dəstəkləyin.
- Pasiyentllə başa düşdüyü dildə danışın və onun həyat tərzinin yaxşılaşdırıl-masına tərəfdar çıxın.
- Pasiyentə suallar verməklə tövsiyələrin ona aydın olduğuna və onlara əməl edilməsi uçün lazımi şəraitin olmasına əmin olun.
- Etiraf edin ki, adət edilmiş vərdişləri tez bir zamanda dəyişdirmək olduqca çətindir və təmkinli ardıcıl addımlar tələsik hərəkətlərdən daha davamlı olur.
- Bilin ki, pasiyentlərə uzunmüddətli dəstək tələb oluna bilər və həyat tərzinin dəyişdirilməsinin müvəfəqiyyətli olması üçün bir çox pasiyentlərə təkrarən sizin köməyiniz lazım ola bilər.
- Əmin olun ki, bütün tibb heyəti eyni informasiyadan istifadə edir.

# ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİNİN PROFİLAKTİKASINDA DAVRANIŞIN DƏYİŞDİRİLMƏSİ ÜÇÜN MƏSLƏHƏTVERMƏ ÜZRƏ

## 10 STRATEJİ ADDIM

1. Pasiyentlə səmimi ünsiyyət yaratmaq
2. Risk amilləri və/və ya ürək-damar xəstəliyi ilə olan bütün xəstələrə məsləhət vermək
3. Pasiyentə davranış ilə səhhətin vəziyyəti arasında qarşılıqlı əlaqənin olmasını dərk etməsində yardım etmək
4. Davranışın dəyişdirilməsinə mane olan halların müəyyən olunmasında pasiyentə kömək etmək
5. Davranışın dəyişdirilməsini pasiyentin öhdəlik kimi qəbul etməsinə nail olmaq
6. Pasiyenti risk amillərinin üzə çıxarılması və korreksiya edəcəyi risk amillərinin müəyyən edilməsinə cəlb etmək
7. Pasiyentin dəyişiklik etmə qabiliyyətinin gücləndirilməsi daxil olmaqla müxtəlif təsirlərin kombinasiyasından istifadə etmək
8. Həyat tərzinin dəyişdirilməsi planını işləyib hazırlamaq
9. Mümkün olduğu zaman digər mütəxəssisləri cəlb etmək
10. Bütün sonrakı müşahidə boyunca prosesə nəzarət etmək

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Vərəqə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi kollegiyasının 23 iyun 2014-cü il tarixli 31 saylı qərarı ilə təsdiq edilmiş “Ürək-damar xəstəliklərinin profilaktikası üzrə klinik protokol” əsasında Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.